# Fransa təcavüzə, irqçiliyə xidmət edir

## Dini ayrı-seçkilik Parisin yürütdüyü siyasətin ayrılmaz hissəsidir

Olimpiya Oyunlarının prinsiplərinin əksinə olaraq açılış mərasimində təcavüzkar Ermənistana göstərilən dəstək, xüsusi qayğı və Azərbaycanın suveren hüquqlarına təhdid olan hərəkətlər, ifadələr Fransanın demokratik xalqların suverenliyinə, beynəlxalq hüquq normalarına, idman oyunlarının əsasnamələrinə hörmət qoymadığını aydın göstərir: "Fransa təcavüzə, irqçiliyə, faşizmə xidmət edən ölkədir. Açılış mərasimində xristian dininə qarşı da hərəkətlər Fransanın iç üzünü dünyaya bir daha göstərdi. Xristianlığın bu şəkildə təbliğ edilməsi bu dinə sitayiş edənlərə, əslində, insanlığa hörmətsizlikdir. Dünyanın bir çox ölkələrinin, din xadimlərinin bu məsələyə reaksiyası, Fransaya etirazlarını bildirməsi də bu baxımdan təsadüfi deyil".

Fransa başda olmaqla bəzi ölkələrin bundan siyasi məqsədlər, xalqları və ölkələri qarşı-qarşıya qoymaq, münaqişələr yaratmaq, müharibələri alovlandırmaq üçün istifadə etmələri ciddi fəlakətlərə, qarşıdurmalara gətirib çıxara bilər. Emmanuel Makron kimi cılız, səriştəsiz dövlət rəhbərləri, bu ölkənin siyasi dairələri bunu hələ də dərindən anlamırlar. Fransada dini ayrı-seçkilik gündən-günə genişlənir və bu ölkəni uçuruma aparır. Azərbaycanda isə bütün dinlər bərabərdir. Din xadimlərinin vəzifəsi isə xalqları daim birgə görmək, Azərbaycanı ucaltmaq, insanların xoşbəxtliyinə çalışmaqdır.

→ 8

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.1, 8.

# Fransa təcavüzə, irqçiliyə xidmət edir

## Dini ayrı-seçkilik Parisin yürütdüyü siyasətin ayrılmaz hissəsidir

"Dil, din və tarix hər bir xalqın varlığının əsasıdır. Bu, insanların müqəddəs amalıdır. Bunlara kölgə salmaq, aşağılamaq insanlığa ziddir və bəşəriyyətin gələcəyi üçün təhlükəlidir. Ancaq təəssüf ki, bəzi dövlətlər dini siyasiləşdirməyi və bundan çirkin məqsədləri üçün istifadə etməyi qarşılarına məqsəd qoyublar".



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, özünü demokratik, haqqın, ədalətin tərəfdarı kimi tanıdan, qələmə verən, ancaq əməldə tam olaraq bunun əksini göstərən Paris riyakar siyasət yürüdür. Bəşəriyyət üçün təhlükəli olan ən yaramaz yolu seçən Fransa dövlətinin, onun siyasi rəhbərliyinin fəaliyyəti bunu aydın göstərir. İslama, türkçülüyə qarşı nifrətin bu ölkədə geniş yayılması, Quranın yandırılması, təhqir olunması, müsəlmanlara qarşı təzyiq və təsirlərin gücləndirilməsi Fransanın dövlət siyasətinin tərkib hissəsidir. Əlbəttə ki, bu, gələcək üçün yaxşı heç nə vəd etmir. Parisdə keçirilən Yay Olimpiya Oyunlarında da bu məkrli siyasətin bir daha şahidi olduq.

O qeyd edib ki, Olimpiya Oyunlarının prinsiplərinin əksinə olaraq açılış mərasimində təcavüzkar Ermənistana göstərilən dəstək, xüsusi qayğı və Azərbaycanın suveren hüquqlarına təhdid olan hərəkətlər, ifadələr Fransanın demokratik xalqların suverenliyinə, beynəlxalq hüquq normalarına, idman oyunlarının əsasnamələrinə hörmət qoymadığını aydın göstərir: "Fransa təcavüzə, irqçiliyə, faşizmə xidmət edən ölkədir. Açılış mərasimində xristian dininə qarşı da hərəkətlər Fransanın iç üzünü dünyaya bir daha göstərdi. Xristianlığın bu şəkildə təbliğ edilməsi bu dinə sitayiş edənlərə, əslində, insanlığa hörmətsizlikdir. Dünyanın bir çox ölkələrinin, din xadimlərinin bu məsələyə reaksiyası, Fransaya etirazlarını bildirməsi də bu baxımdan təsadüfi deyil".

Dini ayrı-seçkiliyin təbliği və genişləndirilməsinin çox təhlükəli tendensiya olduğunu qeyd edən T.Rzayev deyib ki, Fransa başda olmaqla bəzi ölkələrin bundan siyasi məqsədlər, xalqları və ölkələri qarşı-qarşıya qoymaq, münaqişələr yaratmaq, müharibələri alovlandırmaq üçün istifadə etmələri ciddi fəlakətlərə, qarşıdurmalara gətirib çıxara bilər. Emmanuel Makron kimi cılız, səriştəsiz dövlət rəhbərləri, bu ölkənin siyasi dairələri bunu hələ də dərindən anlamırlar. Fransada dini ayrı-seçkilik gündən-günə genişlənir və bu ölkəni uçuruma aparır. Azərbaycanda isə bütün dinlər bərabərdir. Din xadimlərinin vəzifəsi isə xalqları daim birgə görmək, Azərbaycanı ucaltmaq, insanların xoşbəxtliyinə çalışmaqdır.

Komitə sədri vurğulayıb ki, Prezident İlham Əliyevin ölkədə tolerantlığın inkişafı, xalqların və dinlərin birliyi ilə bağlı təşəbbüsləri, bu istiqamətdə həyata keçirilən tədbirlərin dünyaya nümunə göstərilməsi və qiymətləndirilməsi qürurvericidir. "Bu, Azərbaycanın gələcək inkişafı, beynəlxalq aləmdə daha böyük nüfuz qazanması üçün bir zəmanətdir. Tolerantlığın bəşəriyyətin gələcəyi üçün vacibliyini qiymətləndirmək dinlərin qovuşması, xalqların qardaşlaşması, müharibələrin, münaqişələrin aradan qaldırılması üçün çox vacibdir", - deyə müsahibimiz əlavə edib.

Tahir Rzayev yekunda qeyd edib ki, Fransa kimi dövlətlərin məkrli, çirkin əməlləri xalqlara, dinlərə etimadsızlıq, hörmətsizlikdir və gələcəyə qorxulu yollar açır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*